**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyası**

# 5901.01 – “Beynəlxalq münasibətlər”

## İxtisas fənni üzrə fəlsəfə doktoru imtahanının

## PROQRAMI

**BAKI - 2025**

## İZAHAT VƏRƏQİ

Beynəlxalq münasibətlərin nə qədər geniş sahəni əhatə etməsinə və tərkibinin çoxsaylı aktorlardan (subyektlərdən) təşkil olunmasına baxmayaraq, bu münasibətlərin əsasını hələ də dövlətlərarası qarşılıqlı siyasi və diplomatik əlaqələr təşkil edir.

Artıq neçə illərdir ki, beynəlxalq münasibətlər, dünya siyasəti, Azərbaycanın beynəlxalq əlaqələri və həyata keçirdiyi xarici siyasəti haqqında respublikamızın ali məktəblərində ixtisas kurslarına dair bir sıra fənlər tədris olunur. Müasir beynəlxalq münasibətlər sisteminin və beynəlxalq birliyin bərabərhüquqlu üzvünə çevrilən Azərbaycan dövlətinin xarici siyasət fəaliyyətinin öyrənilməsi çox zəruridir və mühüm elmi-praktiki əhəmiyyət kəsb edir. Bununla yanaşı, “Beynəlxalq münasibətlər” ixtisası üzrə fəlsəfə doktorunun imtahan proqramının hazırlanması olduqca zəruridir.

Proqram bu istiqamətdə movcüd olan müvafiq dərsliklərə, monoqrafiya və kitablara, “Beynəlxalq münasibətlər” ixtisasının tədris planına müvafiq olaraq keçirilən fənlərin proqramına uygun olaraq hazırlanmışdır. Proqramda mövzular və onların məzmunu konkret izah edilir. İlk olaraq, beynəlxalq münasibətlər anlayışı, onun meydana çıxması və müasir xarakteristikası; beynəlxalq münasibətlərin nəzəri mənbələri, konseptual yanaşmalar və müasir nəzəriyyələr; beynəlxalq münasibətlər sisteminin formalaşması və inkişaf mərhələləri açıqlanır.

Bundan başqa, müasir beynəlxalq münasibətlər sisteminin tendensiyaları, aktorları, xarakterik xüsusiyyətləri; yeni dünya nizamı və onun mahiyyəti, dünya siyasətinin transmilliləşməsi, qlobal demokratikləşmə və onun dünya siyasətinin əsas tələbinə çevrilməsi; qloballaşma və onun müasir beynəlxalq münasibətlərə təsiri; regional inteqrasiya və dövlətlərarası əlaqələrin intensivləşməsi; beynəlxalq təşkilatlar və onların müasir dünya

siyasətinə təsiri kimi məsələlər izah edilərək kursun mənimsənilməsi üçün istiqamət verilir.

Bununla yanaşı, proqramda Azərbaycan Respublikasının xarici siyasətinin vəzifələri, prinsipləri və əsas istiqamətləri; müasir beynəlxalq münasibətlər sistemində yeri və rolu; dövlətimizin beynəlxalq aləmlə, dünya və region ölkələri ilə eyni zamanda beynəlxalq və regional təşkilatlarla ikitərəfli və çoxtərəfli əlaqələri; dünyanın və regionun təhlükəsizlik, əməkdaşlıq və inteqrasiya proseslərinə qatılması təşkil edir. Həmçinin, proqramda Azərbaycanın çoxtərəfli regional əlaqələri, eyni zamanda Ermənistan-Azərbaycan münaqişəsi kimi mövzuların fəlsəfə doktoruna ətraflı və sistemli şəkildə çatdırılması da zəruri hesab edilərək, onların ayrı-ayrılıqda izahının verilməsi və müvafiq suallar nəzərdə tutulmuşdur.

Proqramda hər bir mühazirə mövzusunun məzmunu konkret izah edildikdən sonra fəlsəfə doktorunun (dissertant və ya doktorantın) imtahalara hazırlaşması üçün suallar verilmiş və kursun dərindən öyrənilməsinə kömək məqsədilə ədəbiyyat siyahısı və tövsiyə edilən əlavə informasiya resursları göstərilmişdir.

## Mövzu 1. BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN NƏZƏRİ ƏSASLARI

**1.1. Beynəlxalq münasibətlər elm sahəsi kimi**. Beynəlxalq münasibətlər elm sahəsinin yaranmasını şərtləndirən amillər. Beynəlxalq münasibətlər elm sahəsinin formalaşması xususiyyətləri və onun digər elmi sahələrlə əlaqəsi. Beynəlxalq münasibətlərin obyekti, predmeti və subyektləri haqqında.

**1.2. Beynəlxalq münasibətlərin nəzəriyyələri.** Beynəlxalq münasibətlər sisteminin mahiyyəti və beynəlxalq münasibətlər nəzəriyyəsi haqqında. Beynəlxalq münasibətlərin müasir nəzəriyyələri. Beynəlxalq münasibətlərdə realizm məktəbi. Beynəlxalq münasibətlərdə liberalizm məktəbi. Neomarksizm, xüsusi və yeni nəzəriyyələr.

## Mövzu 2. BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİ: FORMALAŞMA TARİXİ VƏ ƏSAS İNKİŞAF MƏRHƏLƏLƏRİ

**2.1. Beynəlxalq münasibətlərin Vestfal sisteminin yaranması;** Qədim dövrlərdə və orta əsrlərdə beynəlxalq münasibətlər. Avropada mərkəzi milli-dövlət hərəkatının güclənməsi və beynəlxalq münasibətlərin Vestfal sisteminin yaranması.

**2.2. Vestfal sisteminin yaranmasından sonra beynəlxalq münasibətlər.** Beynəlxalq münasibətlərin Vyana sisteminin əsas xüsusiyyətləri. Birinci dünya müharibəsinin sonu, beynəlxalq münasibətlərin Versal-Vaşinqton sisteminin yaradılması. Azərbaycanın beynəlxalq münasibətlər sisteminə qatılmaq cəhdləri: Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920-ci illər). 1922-1939-cu illərdə beynəlxalq münasibətlər və Versal-Vaşinqton sisteminin böhranı. İkinci dünya

müharibəsinin nəticələri və dünyada ikiqütblü beynəlxalq münasibətlər sisteminin yaranması (1945-1950-ci illərin ortaları). Beynəlxalq münasibətlər sistemi soyuq müharibə dövründə (1950-ci illərin ortaları - 1991-ci il).

## Mövzu 3. MÜASİR BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNİN ƏSAS XARAKTERİK XÜSUSİYYƏTLƏRİ

**3.1. Müasir beynəlxalq münasibətlər sisteminin xarakteristikası.** Müasir beynəlxalq münasibətlər sisteminin yaranması və əsas xarakterik xüsusiyyətləri. Yeni dünya nizamı və onun mahiyyəti. Beynəlxalq münasibətlərin əsas aktorları.

**3.2. XX əsrin 90-cı illərində sosializm sisteminin böhranı və dünyada demokratikləşmə meyllərinin güclənməsi**. ATƏT-in Paris Sammiti (1990). Paris Xartiyasının qəbul olunması. Demokratikləşmənin yeni dalğası və bitərəf dövlətlər bloku. Avropada və dünyada ideoloji-sinfi qarşıdurmanın yeni dünya nizamı ilə əvəz olunması. SSRİ-də böhran və müttəfiq respublikalarda müstəqillik hərəkatlarının başlanması (1991). SSRİ-nin dağılması, yeni müstəqil dövlətlərin meydana gəlməsi və müasir dünya siyasətinin subyektinə çevrilməsi. ATƏT-in Helsinki Sammiti (1992) və beynəlxalq münasibətlərin yeni prinsiplərinin meydana çıxması. ATƏT-in beynəlxalq münasibətlərin əsas institutlarından birinə çevrilməsi (Budapeşt Sammiti, 1994). Müasir beynəlxalq münasibətlərin yaranması və əsas xarakterik xüsusiyyətləri (təzahür formaları, tərkibi, əsas aktorları, tendensiyaları, dünyanın qloballaşması və s.). ATƏT-in İstanbul Sammiti (1999).

**3.3. Dünya siyasəti və beynəlxalq münasibətlərdə baş verən dəyişikliklər**. Dünya siyasətinin yeni prinsipləri və milli dövlət hüquqlarının məhdudlaşdırılması. Milli dövlət hüquqları və qeyri-dövlət aktorları. Dünya siyasətinin transmilliləşməsi, transmilli korporasiyalar və milli dövlətlər. Beynəlxalq münasibətlərin milli dövlət sistemi və onun suveren hüquqlarının qorunması prinsiplərinin dəyişikliklərə məruz qalması. ABŞ və onun yeni

dünya nizamındakı rolu. Təkqütblü dünya siyasəti və onun müasir beynəlxalq münasibətlərdə təzahür formaları. Yeni dünya nizamı və dövlətlərin dünya siyasətinə təsir imkanlarında baş vermiş dəyişikliklər (ierarxik düzüm). Beynəlxalq hüququn yeni prinsiplərlə inkişaf etdirilməsi (insan hüquq və azadlıqları, demokratik inkişaf və vətəndaş cəmiyyəti tələbləri). Yeni dünya nizamının keyfiyyət xarakteristikası və ona təsir göstərən əsas faktorlar.

## Mövzu 4. QLOBALLAŞMA, İNTEQRASİYA VƏ DEMOKRATİKLƏŞMƏ MÜASİR BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN ƏSAS TENDENSİYALARI KİMİ

**4.1. Qloballaşma tendensiyası**. Qloballaşmanın xarakteri, mahiyyəti və əsas təzahür formaları. Qloballaşma və dünya siyasətinin transmilliləşməsi. Qloballaşma və dünyanın iqtisadi strukturunun dəyişməsi. TMK-lar və milli dövlət maraqları. Əsas qloballaşma mərkəzləri və qloballaşma rəqabəti. Qloballaşmanın əsas təzahür formaları və ziddiyyətləri. Qloballaşmanın müsbət və mənfi nəticələri, dünya siyasətinə, beynəlxalq münasibətlərə təsiri. Qloballaşmanın inkişaf etmiş və üçüncü dövlətlərə təsiri. qloballaşma və müasir dünyanın yeni iqtisadi düzəni.

**4.2. Regional inteqrasiya.** Regional inteqrasiyanın səbəbləri, xarakteri və əsas təzahür formaları. Dünyanın əsas regional inteqrasiya mərkəzləri və onların fərqli xüsusiyyətləri (Avropa, Cənub-Şərqi Asiya, Amerika, Avrasiya və s.). Regional inteqrasiya və milli dövlətlər. Regional inteqrasiyanın digər dövlətdaxili, qeyri-hökumət institutlarına təsiri. Regional inteqrasiyanın əsas formaları. Regional inteqrasiya və onun əsas subyektləri arasındakı ziddiyyətlər. Regional inteqrasiya və onun tənzimlənməsi. Əsas regional inteqrasiya təşkilatları və onların fəaliyyət prinsipləri.

**4.3. Demokratikləşmə.** Demokratikləşmə və müasir dünya siyasətinin formalaşması. Demokratikləşmənin dünya siyasəti səviyyəsinə yüksəldilməsi və ABŞ-ın xarici siyasəti. Dünya dövlətlərinin demokratik

inkişaf meylləri və onların təsnifatı. Demokratikləşmənin və onun milli dövlət hüquqlarının təmin olunmasına təsiri. Sosializmin iflası və demokratikləşmənin üçüncü dalğasının vüsət alması. Demokratikləşmənin inkişaf trayektoriyası və perspektivləri. Demokratikləşməyə təsir göstərən əsas xarici və daxili faktorlar. Transmilli demokratikləşmə və onun müasir beynəlxalq münasibətlərə təsiri. Demokratikləşmə və subyektiv yanaşma.

## Mövzu 5. MÜASİR DÜNYA SİYASƏTİNDƏ BEYNƏLXALQ TƏŞKİLATLARIN ROLU

**5.1. Beynəlxalq təşkilatların müasir dünya siyasətinin formalaşması və inkişafındakı rolu.** Beynəlxalq təşkilatların təsnifatı və xarakteristikası. üzvlük və coğrafi (məkan) prinsipləri, funksiyaları və vəzifələri, suveren dövlət hüquqlarına müdaxiləsi. Beynəlxalq təşkilatların yaranması və inkişafı, dünya siyasətinin formalaşması sahəsində onlardan istifadə edilməsi. Beynəlxalq münasibətlərin tənzimlənməsində hökumətlərarası təşkilatların rolu. Müasir beynəlxalq münasibətlər sistemində onların yeri və rolu (BMT-nin ixtisaslaşmış qurumları (təşkilatları). Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Ümumdünya Ticarət Təşkilatı, Beynəlxalq Əmək Təşkilatları, UNESKO, UNİSEF, və s.). (Şimali Amerika Azad Ticarət Sazişi, Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyası, Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq Təşkilatı, OPEK və s.).

**5.2. Regional beynəlxalq təşkilatlar, onların müasir beynəlxalq münasibətlər sistemində iştirakı**. ATƏT, NATO, Avropa İttifaqı, Avropa Şurası, Qoşulmama Hərəkatı. Afrika Birliyi Təşkilatı, Amerika Dövlətləri Təşkilatı, Ərəb Dövlətləri Liqası, İstam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və s.

**5.3. Beynəlxalq qeyri-hökumət təşkilatları (BQHT) və onların müasir dünya siyasətinin formalaşmasına təsiri**: BQHT-lərin yaranması (yaradılması) səbəbləri və onların dünya siyasətində iştirakı. BQHT-lərin böyük dövlətlər tərəfindən istifadə edilməsi. BQHT-lərin təsnifatı və

spesifikası, hüquqi statusu, beynəlxalq proseslərə təsir mexanizmləri (Sərhədsiz həkimlər, Qrinpis, Beynəlxalq Amnistiya Təşkilatı, Qızıl Xaç, Beynəlxalq Olimpiya Komitəsi, Azad Həmkarlar Təşkilatının Beynəlxalq Konfransı və.s.), onların əsas məqsədi, yaranması və fəaliyyət prinsipləri. QHT-in beynəlxalq münasibətlərin subyekti kimi rolu.

## Mövzu 6. MÜASİR DÜNYANIN QLOBAL PROBLEMLƏRİ

**6.1. Silahlar üzərində nəzarət.** Beynəlxalq münasibətlərdə hərbi güc, onun əsas növləri. Nüvə təhlükəsizliyi problemləri. Nüvə silahlarının məhdudlaşdırılması prosesi. Nüvə silahlarına malik olan dövlətlərin bu silahların məhdudlaşdırılmasına dair qarşılıqlı öhdəlikləri. Nüvə silahlarınım yayılmaması rejimi. Kimyəvi və bakterioloji silahlar üzərində nəzarətə dair beynəlxalq razılaşmalar. Adi silahlar üzərində nəzarətə dair beynəlxalq razılaşmalar.

**6.2. Beynəlxalq münaqişələr.** XX-XXI əsrlərdə beynəlxalq münaqişələrin əsas xüsusiyyətləri. Siyasi, iqtisadi və ideoloji maraqların ziddiyyətləri əsasında yaranan münaqişələr. Soyuq müharibənin başa çatmasından sonra beynəlxalq münaqişələr. Etnosiyasi münaqişələr: anlayısı və əsas xüsusiyyətləri. Müasir dünya şəraitində beynəlxalq münaqişələrin həlli imkanları və mexanizmləri.

**6.3. Beynəlxalq terrorizm.** Beynəlxalq terrorizmin əsas əlamətləri. Beynəlxalq terrorizmin yaranması və postbipolyar dünya şəraitində aktuallaşması səbəbləri. Beynəlxalq terrorizmlə səmərəli mübarizəni əngəlliyən amillər. Beynəlxalq terrorçu təşkilatlar. Beynəlxalq terrorizmə dəstək verən dövlətlər.

**6.4. Demoqrafiya və ətraf mühit problemləri.** Müasir dünyanın əsas demoqrafik problemləri. Beynəlxalq münaqişələrdə ətraf mühit. Ətraf mühit problemlərinin qlobal aktuallaşmasının səbəbləri. “Davamlı inkişaf” strategiyası və onun reallaşdırılmasının əsas problemləri.

Ətraf mühit və demoqrafiya problemlərinin həlli yolunda beynəlxalq əməkdaşlıq.

**6.5. Pandemiyalar.** COVİD-19 pandemiyası və onun müasir beynəlxalq münasibətlərə təsiri. COVİD-19 pandemiyası ilə mübarizə mexanizmləri. Bu sahədə dövlətlərarası əməkdaşlıq.

## Mövzu 7. BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN HÜQUQİ VƏ İQTİSADİ MƏQAMLARI

**7.1. Beynəlxalq hüquq.** Beynəlxalq hüququn anlayışı və təbiəti. beynəlxalq hüququn əsas mənbələri və normativləri. Beynəlxalq hüququn subyektləri. Beynəlxalq hüququn əsas prinsipləri. Beynəlxalq hüquq və daxili hüquq. Beynəlxalq hüququn müasir dünya siyasətində səmərəli tədbiq olunmasının əsas problemləri.

**7.2. Beynəlxalq münasibətlər və iqtisadiyyat.** Beynəlxalq siyasətdə iqtisadi amillərin rolu. Dünya siyasi iqtisadiyyatına əsas yanaşmalar. Beynəlxalq ticarət və beynəlxalq maliyyə sistemləri. Transmilli şirkətlər və onların müasir beynəlxalq münasibətlər sistemində rolu. Ümumdünya Ticarət Təşkilatı, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı və onların müasir beynəlxalq münasibətlər sistemində rolu.

## Mövzu 8. AZƏRBAYCAN RESPUBLIKASININ BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ İŞTİRAKI

**8.1. Xarici siyasətin daxili və xarici resursları**. Maddi resurslar – coğrafi, demoqrafik, iqtisadi, hərbi. Qeyri-maddi resurslar – siyasi, sosial, reputasiya (imic), ideoloji, mədəni, informasiya, elmi-texniki və təhsil. Xarici resurslar – dövlətlərlə, təşkilatlarla münasibətlər, beynəlxalq ictimai rəyə çıxış və ona təsir imkanları, diaspora ilə işin səviyyəsi. Xarici siyasət mexanizmlərinin müəyyən edilməsi və həyata keçirilməsi. Vəzifələrin, məqsədlərin və onu həll etməyin düzgün strategiyasının və taktikasının hazırlanması. Dünya siyasətinin mövcud vəziyyətinin və tendensiyalarının

düzgün müəyyənləşdirilməsi və praktik siyasət yürüdülməsi. Beynəlxalq maraqlar sisteminə adekvat yanaşma və milli maraqların düzgün qoyulması. Xarici siyasət mexanizmlərinin yaradılması və fəaliyyətin təmin olunması. Rəsmi strukturlar – Prezident, Parlament, Xarici İşlər Nazirliyi, digər rəsmi strukturların xarici siyasət fəaliyyətində iştirakı və ümumi koordinasiyası. Xarici ölkələrdə diplomatik nümayəndəliklərin və ölkə daxilində xarici nümayəndəliklərin fəaliyyətinin düzgün yönəldilməsi və idarə olunası. Xarici və milli institutların, siyasi, ictimai təşkilatların, kütləvi-informasiya vasitələrinin, milli elitanın, milli, dini və vətəndaş cəmiyyəti institutlarının imkanlarından xarici siyasət vəzifələrinin reallaşdırılması işində istifadə edilməsi və s.

**8.2. Xarici siyasət prioritetlərinin müəyyən edilməsi yolları və vasitələri**. Xarici siyasət prioritetlərinə təsir göstərən amillər. Xarici siyasət prioritetlərinin müəyyən edilməsi, açıqlanması və həyata keçirilməsi. Xarici siyasət prioritetləri ilə beynəlxalq münasibətlərin reallıqları arasındakı bağlılıq və əlaqə.

**8.3. Azərbaycanın müstəqilliyinin bərpa olunması (1991, 18 oktyabr) və dünya dövlətləri tərəfindən tanınması**. BMT üzvlüyünə qəbul olunması (2 mart 1992) və beynəlxalq münasibətlərin subyektinə çevrilməsi. Azərbaycanın beynəlxalq münasibətlər sisteminə qatılması və müstəqil xarici siyasət yürütməsini çətinləşdirən daxili və xarici faktorlar. Azərbaycanın geosiyasi, geoiqtisadi, geostrateji mövqeləri və bunların onun beynəlxalq aləmlə əlaqələrinə təsiri. Azərbaycanın strateji inkişaf seçimi və bunun ölkənin beynəlxalq vəziyyətinə təsiri. Azərbaycanın enerji siyasəti və Qərbə inteqrasiya meylləri. Azərbaycanın Şərq-Qərb əlaqələrindəki əlverişli mövqeyi və bundan istifadə cəhdləri. Azərbaycanın qlobal iqtisadi, siyasi, təhlükəsizlik problemləri və beynəlxalq təşkilatlarla bu istiqamətdə həyata keçirdiyi siyasət.

**8.4. Azərbaycanın xarici siyasətinin əsas vəzifələri və onun reallaşdırılması yolları**. Xarici siyasətin əsas xüsusiyyətləri və onun

xarakteristikası. Xarici siyasətin mahiyyəti və prinsipləri. Xarici siyasət və beynəlxalq hüquq. Azərbaycanın xarici siyasətinin əsas mərhələləri və onu səciyyələndirən cəhətləri. Xarici siyasətin konstitusiya təminatı, beynəlxalq münasibətlərin reallıqları və ondan yararlanma yolları. Azərbaycanın xarici siyasəti, BMT nizamnaməsi, ATƏT-in əsas prinsipləri və digər beynəlxalq hüquq normaları. Azərbaycanın xarici siyasətinin Heydər Əliyev konsepsiyası və onun həyata keçirilməsi.

## Mövzu 9. AZƏRBAYCANIN İKİTƏRƏFLİ VƏ ÇOXTƏRƏFLİ MÜNASİBƏTLƏRİ

**9.1. İkitərəfli münasibətlər.** Rusiyanın Avrasiya siyasəti və Azərbaycanla münasibətləri. SSRİ-nin dağılmasından sonra Rusiyanın Avrasiya regionunda yürütdüyü siyasət və onun regional münasibətlərə təsiri. Rusiyanın Cənubi Qafqazda yürütdüyü siyasət və Azərbaycanın yeri və rolu. Rusiyanın Azərbaycandakı maraqları. Rusiya ilə Azərbaycan arasında diplomatik münasibətlərin qurulması (4 aprel 1992). Rusiyanın Ermənistan-Azərbaycan münaqişəsində tutduğu mövqe. Azərbaycan-Rusiya münasibətlərinin hazırkı durumu. Azərbaycan-Türkiyə münasibətləri**.** Türkiyənin Avrasiya siyasəti, onun mahiyyəti və xarakterik xüsusiyyətləri. Türkiyənin Avrasiya siyasətində Azərbaycanın yeri və rolu. Türkiyə ilə Azərbaycan arasında dil, din və etnik birlik, tarixi bağlılıq. Türkiyənin Azərbaycanın müstəqilliyini tanıması (9 noyabr 1991). Türkiyə ilə Azərbaycan arasında diplomatik münasibətlərin qurulması (14 yanvar 1992). Azərbaycan-Türkiyə münasibətlərində yeni mərhələnin başlanması (iyun 1993 - 2003). Azərbaycan-Türkiyə münasibətlərinin hazırkı durumu, dostluq, qardaşlıq və stateji tərəfdaşlıq (2003-2023). Hərbi sahədə əməkdaşlıq. İran-Azərbaycan münasibətləri. İran-Azərbaycan münasibətlərini şərtləndirən amillər. İranın Azərbaycanın dövlət müstəqilliyini tanıması (25 dekabr 1991). Diplomatik əlaqələrin qurulması (12 mart 1992). İranın Ermənistan-Azərbaycan münaqişəsində tutduğu mövqe. Xəzərin statusu ilə bağlı İranın

destruktiv mövqeyi. İranın Ermənistanla sıx əməkdaşlıq əlaqələrinin Azərbaycan-İran münasibətlərinə mənfi təsiri. Azərbaycan-İran münasibətlərinin hazırkı durumu. Azərbaycan-Ukrayna münasibətləri. Azərbaycan-Belarus münasibətləri. Azərbaycan-Moldova münasibətləri. Azərbaycan-Gürcüstan münasibətləri. Azərbaycanın xarici siyasətində Orta Asiya dövlətləri. Azərbaycanın Baltikyanı postsovet respublikaları ilə münasibətləri. Azərbaycan-ABŞ münasibətləri. Azərbaycanın ABŞ-la sıx əməkdaşlığını zəruri edən amillər. ABŞ-ın Qafqazda, o cümlədən Azərbaycandakı maraqları və onun reallaşdırılması yolları. ABŞ-ın Azərbaycanın müstəqilliyini tanıması (25 dekabr 1991). Iki dövlət arasında diplomatik münasibətlərin yaranması. ABŞ-da erməni lobbisinin anti-Azərbaycan fəaliyyəti və ABŞ Konqresi tərəfindən Azərbaycanın əleyhinə yönəlmiş "Azadlığı müdafiə akt"ına "907-ci düzəliş"in qəbul edilməsi (dekabr 1992). "Əsrin müqaviləsində" ABŞ şirkətlərinin rolu. 11 sentyabr 2001-ci ildə ABŞ-da törədilmiş terror hadisələrinin Azərbaycan-ABŞ münasibətlərinə təsiri. Beynəlxalq terrorizmə qarşı ABŞ-Azərbaycan əməkdaşlığı. Azərbaycanla ABŞ arasındakı münasibətlərin müasir durumu və strateji tərəfdaşlıq əlaqələrinin əsas istiqamətləri. Azərbaycanın Avropa ölkələri ilə münasibətləri. Avropa qitəsi müasir dünya siyasətində. Qərbi və Şərqi Avropa ölkələri və Azərbaycanın xarici siyasəti. Enerji resursları dünyanın müasir geosiyasətində. Azərbaycanın enerji diplomatiyası.

**9.2. Çoxtərəfli münasibətlər.** Azərbaycanın üzv olduğu və əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlar və onların müasir dünya siyasətində rolu.

Azərbaycanın BMT-yə üzv olmasının əhəmiyyəti. BMT-nin Ermənistanın ölkəmizə təcavüzü ilə bağlı 822, 853, 874 və 884 saylı qətnamələri (1993). Azərbaycanın BMT ilə siyasi, iqtisadi, elmi-texniki və mədəni sahələrdəki əməkdaşlığı. BMT-nin ixtisaslaşmış qurumları ilə əlaqə**.** COP çərçivəsində əməkdaşlıq.

Azərbaycan-ATƏT əlaqələri. ATƏM-in (ATƏT-in) yaranması və Avropada təhlükəsizlik və əməkdaşlıq məsələlərində güclü təsiretmə

qüvvəsinə malik bir təşkilata çevrilməsi. Azərbaycanın ATƏT-ə üzv olmasını şərtləndirən amillər. Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində ATƏT-in rolu. Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması üçün ATƏT-in Minsk qrupunun yaranması və fəaliyyəti. 1992-2020-ci illərdə Azərbaycanla ATƏT arasındakı münasibətlər.

Azərbaycan-Avropa İttifaqı münasibətləri. Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrini şərtləndirən amillər. Avropa İttifaqının Azərbaycandakı maraqları. Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında münasibətlərin qurulması (27 fevral 1993). Azərbaycan Avropa İttifaqının "Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi" (TRASEKA) layihəsinin fəal iştirakçısı kimi. Avropa Birliyi tərəfindən Tarixi ipək yolunun bərpası üzrə Bakıda keçirilən beynəlxalq konfrans (8-9 sentyabr 1998). Azərbaycanla Avropa İttifaqı arasında Tərəfdaşlıq və əməkdaşlıq haqqında protokolun imzalanması (17-20 may 2004). Yeni qonşuluq siyasəti layihəsinin müzakirəsi. Azərbaycan Respublikasının Avropa İttifaqının Şərq Tərəfdaşlığı təşəbbüsündə iştirakı. Azərbaycan və Avropa İttifaqı arasında insan hüquqları və demokratikləşdirmə sahəsində əməkdaşlıq**.** Azərbaycan-Avropa İttifaqi münasibətlərinin hazırkı durumu.

Azərbaycan - NATO münasibətləri. Azərbaycan-NATO münasibətlərini şərtləndirən amillər. Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına üzv olması (4 may 1994). Azərbaycan-NATO münasibətlərində Türkiyənin rolu. Azərbaycan-NATO münasibətlərinin intensivləşməsinin Rusiya və İran üçün narahatlıq yaratması. Azərbaycanın NATO-nun sülhməramlı əməliyyatlarında iştirakı. Azərbaycan-NATO münasibətlərinin hazırkı durumu.

Azərbaycan-İslam Əməkdaşlıq Təşkilatı əlaqələri. İslam Konfransı Təşkilatının (İKT) (2011-ci ilin iyunundan İslam Əməkdaşlıq Təşkilatı (İƏT)) dünya proseslərində oynadığı rol. Azərbaycan Respublikasının İslam Əməkdaşlıq Təşkilatına (İKT) üzv qəbul olunması. Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar İslam Əməkdaşlıq Təşkilatının qəbul

etdiyi sənədlər və onların mahiyyəti. Müasir mərhələdə Azərbaycan Respublikasının İslam Əməkdaşlıq Təşkilatı ilə münasibətləri.

Azərbaycan - Qoşulmama Hərəkatı əlaqələri. Azərbaycanın İndoneziyanın Bali adasında təşkilata üzv olan dövlətlərin yekdil dəstəyini əldə edərək Qoşulmama Hərəkatına tam hüquqlu üzv qəbul olunması (26 may, 2011-ci il). 2016-cı ildə keçirilmiş XVII Zirvə Görüşündə növbəti sammitin Bakı şəhərində keçirilməsi 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi barədə yekdil qərar qəbul olunması. Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının Bandunq prinsiplərini rəhbər tutmaqla müasir dünyanın çağırışlarına birgə və adekvat cavab verilməsini təmin etməkǁ mövzusunda keçirilən XVIII Zirvə Görüşü (25-26 oktyabr, 2019-cu il).

## Mövzu 10. ERMƏNİSTAN-AZƏRBAYCAN MÜNAQİŞƏSİ

**10.1. Ermənistan-Azərbaycan münaqişəsinin tarixi kökləri.** Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının tarixi kökləri, mahiyyəti və həyata keçirilməsinin xarakterik xüsusiyyətləri. Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi və onun ağır nəticələri (1804-1813 və 1826-1828 müharibələrinin gedişində) XX əsrin əvvəllərində Böyük Ermənistan iddiaları və azərbaycanlılara qarşı soyqırımı siyasəti (1905-1906 və 1918-1920). 1918-1920-ci illərdə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları. Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) yaradılması (1923) və onun Azərbaycan üçün ağır nəticələri. Sovet hakimiyyətinin ilk illərində və sonrakı dövrdə erməni millətçilərinin fəaliyyəti. Sovet hakimiyyəti illərində Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları.

**10.2. XX əsrin sonunda Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və SSRİ rəhbərliyinin Cənubi Qafqaz siyasəti.** XX əsrin sonlarında Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və hərbi təcavüzünün başlanması. Ermənistanın Qarabağa dair əsassız ərazi iddialarının sosial-iqtisadi, siyasi-hüquqi aspektləri. Ermənistan SSR Ali

Soveti Azərbaycanın suverenliyini kobud surətdə pozaraq DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsi haqqında Konstitusiyaya zidd qərar qəbul etməsi (1 dekabr 1989). Qarabağın dağlıq hissəsində gərginliyin artması (1990-1991). SSRİ-nin hakim dairələri tərəfindən himayə edilən Ermənistanın Azərbaycana qarşı açıq-aşkar təcavüzkarlıq siyasəti yeritməsi, dinc sakinlərin qətlə yetirilməsi. Ermənistanda tarixən yaşamış azərbaycanlıların deportasiya siyasəti (1988-1991).

**10.3. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və işğalçılıq siyasətinin nəticələri.** 1992-ci ilin əvvəllərindən başlayaraq Ermənistan ordusunun yuxarı Qarabağda azərbaycanlılar yaşayan sonuncu yaşayış məntəqələrini işğal etməsi. Ermənistan silshlı qüvvələri tərəfindən Şuşa şəhərinin işğalı (8 may 1992). Ermənistan silahlı qüvvələrinin xarici himayədarların köməyindən istifadə edərək Qarabağın dağlıq bölgəsinin hüdudlarından kənarda yerləşən və onun ərazisindən kənarda yerləşən ətraf Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan bölgələrini işğal etməsi. Dövlət terrorizmi və soyqırımı siyasəti. Ermənistan və işğal olunmuş ərazilərdəki separatçı rejim tərəfindən terror aktlarının törədilməsi. Ermənistanın işğalçılıq siyasətinin nəticələri. XX sonunda Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və işğalçılıq siyasətinin nəticələri (1988-1993).

**10.4. Ermənistan-Azərbaycan münaqişəsi BMT Təhlükəsizlik Şurasında.** Ermənistan-Azərbaycan münaqişəsinin BMT səviyyəsinə çıxarılması. BMT Təhlükəsizlik Şurasının Ermənistanın ölkəmizə təcavüzü ilə bağlı 822, 853, 874 və 884 saylı qətnamələri (1993). BMT Baş Məclisinin 2006-cı il sentyabrın 7-də keçirilən 60-cı sessiyasının 98-ci və 2008-ci il martın 14-də keçirilən 62-ci sessiyanın 86-cı plenar iclaslarında «Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət» adlı qətnamələrin qəbul edilməsi.

**10.5. ATƏT-in Minsk qrupunun fəaliyyəti.** ATƏT-in Nazirlər Şurasının Qarabağla bağlı Minsk Konfransının çağrılması haqqında (24 mart 1992)

qərarı və Minsk qrupunun yaradılması. ATƏT-in Budapeşt Sammiti (1994). ATƏT-in Lissabon Sammiti (1996) və Qarabağ probleminin həlli ilə bağlı əsas prinsiplərin müəyyən olunması. Ermənistan-Azərbaycan münaqişə bölgəsində atəşkəsə nail olması (1994) və Minsk qrupunun fəaliyyəti. həmsədrlik institutunun yaradılması, fəaliyyəti və münaqişənin həlli ilə bağlı təkliflərin hazırlanması. Münaqişənin "paket" və həmin ilin sentyabrında irəli sürdükləri münaqişənin "mərhələli" həll təklifləri (iyul, sentyabr 1997). Həmsədrlər tərəfindən irəli sürülən və beynəlxalq hüquq normalarına zidd, həmçinin Azərbaycan üçün qəbulu qeyri-mümkün hesab edilən "ümumi dövlət" ideyası (9 noyabr,1998). ATƏT-in Minsk qrupu həmsədrləri Praqa prosesi adlanan üçtərəfli danışıqlar çərçivəsində Madrid prinsipləri kimi tanınan dördüncü təkliflər paketi (2004-2007). ATƏT-in Minsk Qrupu həmsədrlərinin bəyanatları. Azərbaycan və Ermənistan prezidentləri arasında aparılan danışıqlar prosesi. ATƏT-in ikili standartlar siyasətinin Ermənistan-Azərbaycan münaqişəsinə təsiri.

**10.6. Digər beynəlxalq təşkilatların münaqişəyə dair mövqeyi və Azərbaycanın diplomatik fəaliyyəti.** Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı Azərbaycanın dövlət siyasəti. Avropa Şurası Parlament Assambleyası. Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə tövsiyə 1690 (2005) (Strasburq, 25 yanvar 2005). Avropa Şurası Parlament Assambleyası. ATƏT-in Minsk Konfransının məşğul olduğu Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə qətnamə 1416 (2005) (Strasburq, 25 yanvar 2005). Avropa Parlamentinin Cənubi Qafqaz üçün Avropa İttifaqının strategiyasına ehtiyac üzrə qətnamə (20 may 2010). NATO Zirvə Toplantısının sənədləri (2010-2015). İslam Əməkdaşlıq Təşkilatının qəbul etdiyi çoxsaylı sənədlər (1992-2017). Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində işğal olunmuş Azərbaycan torpaqlarında islam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında qətnamələr.

**10.7. Xocalı soyqırımı: səbəbləri, nəticələri və beynəlxalq aləmdə tanınması.** Xocalı faciəsinin beynəlxalq aləmdə soyqırımı kimi tanınması istiqamətində atılan addımlar. Xocalı soyqırımı haqqında həqiqətlərin dünyaya çatdırılması. Xocalı soyqırımı həqiqətlərinin dünya ictimaəiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun fəaliyyəti. "Xocalıya ədalət" beynəlxalq informasiya və təşviqat kampaniyası. İslam Əməkdaşlıq Təşkilatı Xocalı faciəsini soyqırımı kimi tanıyan beynəlxalq təşkilat kimi. ABŞ-ın müxtəlif Ştatlarının qaunverici orqanları tərəfindən Xocalı soyqırımının tanınması. Xocalı soyqırımının Türkiyədə, Rusiyada, Almaniyada, ABŞ-da, Ukraynada, Qazaxıstanda, Gürcüstanda, Küveytdə və dünyanın bir çox ölkələrində qeyd olunması. Latın Amerikası ölkələri tərəfindən Xocalı soyqırımının tanınması. Avropa ölkələrinin parlamentlərində Xocalı soyqırımı haqqında siyasi sənədlərin qəbul edilməsi.

**10.8. II Qarabağ müharibəsindən sonra Azərbaycanın xarici siyasətinin prioritet istiqamətləri.** II Qarabağ müharibəsinin şərtləndirən amillər. Ermənistanın təcavüzkar siyasəti və münaqişənin nizama salınması üçün ATƏT-in vasitəçilik səylərinin iflası. 44 günlük Vətən müharibəsində Azərbaycan Respublikasına edilən təzyiqlər və nəticələri. Vətən müharibəsində qazanılan qələbənin regional və beynəlxalq əhəmiyyəti. Azərbaycan – Ermənistan – Rusiya üçtərəfli (2020-ci il 10 noyabr) və 2021-ci il 11 yanvar tarixli Moskva bəyanatları. Azərbaycanın II Qarabağ müharibəsindəki hərbi-diplomatik uğurları və müsair beynəlxalq münasibətlər sistemində rolu. Böyük dövlətlərin Ermənistan-Azərbaycan münaqişəsinə dair siyasəti. Azərbaycanın hücum diplomatiyasına əsaslanan müasir xarici siyasətinin əsas istiqamətləri. Şuşa şəhərinin işğaldan azad edilməsinin hərbi-strateji əhəmiyyəti və ona digər dövlətlərin münasibəti. Lokal xarakterli antiterror tədbirləri, nəticələri və ona digər dövlətlərin münasibəti

**“Beynəlxalq münasibətlər”İxtisas fənni üzrə**
**fəlsəfə doktoru imtahanının sualları**

1. “Beynəlxalq münasibətlər” elm sahəsinin yaranmasını şərtləndirən amillər
2. “Beynəlxalq münasibətlər” fənninin predmeti
3. Beynəlxalq münasibətlərdə təhlilin əsas səviyyələri
4. Beynəlxalq münasibətlərdə elm-tədqiqat metodları
5. Siyasi realizm nəzəriyyəsi
6. Neorealizm nəzəriyyəsi
7. Klassik liberalizmin əsas müddəaları
8. Neoliberal nəzəriyyələr
9. Neomarksizmin əsas müddəaları
10. COP29-un Azərbaycan Respublikası üçün gətirdiyi reallıqlar və perspektivlər
11. Beynəlxalq münasibətlər sisteminin formalaşması və əsas inkişaf mərhələləri
12. Avropada mərkəzi milli-dövlət hərəkatının güclənməsi və Vestfal sisteminin yaranmasından sonra beynəlxalq münasibətlərdə baş verən dəyişikliklər
13. Beynəlxalq münasibətlər sistemi soyuq müharibə dövründə
14. XX əsrin 90-cı illərində sosializm sisteminin böhranı və dünyada demokratikləşmə meyllərinin güclənməsi
15. Müasir beynəlxalq münasibətlər sisteminin yaranması və əsas xarakteristikası
16. Yeni dünya nizamının yaranması və mahiyyəti.
17. Regional inteqrasiyanın səbəbləri, xarakteri və əsas təzahür formaları
18. Müasir dünyada inteqrasiya prosesləri
19. Qloballaşma və dünya siyasətinin transmilliləşməsi
20. Qlobal iqlim dəyişikliyi ilə mübarizədə Azərbaycan modeli

**21.** Dünya siyasəti və müasir beynəlxalq münasibətlərdə baş verən dəyişikliklər.

**22.** Beynəlxalq hüququn yeni prinsiplərinin və onların həyata keçirilməsi mexanizmlərinin yaranması

**23.** Beynəlxalq (regional) inteqrasiya və onun müasir dünya siyasətinə təsiri

**24.** Dünyanın demokratikləşməsi tendensiyası və milli dövlətlər

**25.** Demokratikləşmə və müasir dünya siyasətinin formalaşması

**26.** Müasir dünyada əsas güc mərkəzləri

**27.** Müasir dünya siyasətinin formalaşmasında beynəlxalq təşkilatların rolu

**28.** Regional beynəlxalq təşkilatlar və onların müasir beynəlxalq münasibətlər sistemində iştirakı

**29.** Beynəlxalq qeyri-hökumət təşkilatları və onların müasir dünya siyasətinin formalaşmasına təsiri

**30.** Qlobal iqlim dəyişikliyi: reallıqlar və perspektivlər

**31.** Beynəlxalq münasibətlərdə hərbi güc və onun əsas növləri

**32.** Beynəlxalq terrorizmin yaranması və postbipolyar dünya şəraitində aktuallaşması səbəbləri

**33.** Terrorizmlə mübarizə sahəsində beynəlxalq əməkdaşlıq

**34.** XX-XXI əsrlərdə beynəlxalq münaqişələrin əsas xüsusiyyətləri

**35.** Beynəlxalq hüququn anlayışı və müasir dünya siyasətində səmərəli tədbiq olunmasının əsas problemləri

**36.** Beynəlxalq münasibətlərdə qaçqın və miqrantlar problemi

**37.** Beynəlxalq siyasətdə iqtisadi amillərin rolu

**38.** Müasir dünyanın əsas demoqrafik və ətraf mühit problemləri

**39.** Müasir beynəlxalq münasibətlər sistemində Böyük yeddilik

**40.** Xarici siyasətin daxili və xarici resursları

**41.** Xarici siyasət prioritetlərinin müəyyən edilməsi yolları və vasitələri

**42.** Cənubi Qafqazın təhlükəsizlik problemləri

43. Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemində iştirakı
44. Azərbaycanın xarici siyasətinin əsas vəzifələri və onun reallaşdırılması yolları
45. Azərbaycanın xarici siyasətinin əsas prioritetləri
46. Azərbaycanın dünya dövlətləri ilə ikitərəfli münasibətləri
47. Azərbaycanın beynəlxalq təşkilatlarla çoxtərəfli münasibətləri
48. Azərbaycanın enerji diplomatiyası
49. Heydər Əliyev və Azərbaycanın xarici siyasət strategiyası (1993-2003)
50. Azərbaycanın xarici siyasətinin yeni mərhələsi (2003-2025)
51. Ermənistan-Azərbaycan münaqişəsinin tarixi kökləri
52. XX əsrin sonunda Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və SSRİ rəhbərliyinin yürütdüyü siyasət
53. Xocalı soyqırımının səbəbləri, nəticələri və beynəlxalq aləmdə tanınması
54. ATƏT-in ikili standartlar siyasətinin Ermənistan-Azərbaycan münaqişəsinə təsiri.
55. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatların qəbul etdiyi sənədlər
56. Şuşa şəhərinin işğaldan azad edilməsinin hərbi-strateji əhəmiyyəti və ona digər dövlətlərin münasibəti
57. 44 günlük Vətən müharibəsində Azərbaycan Respublikasına edilən təzyiqlər və nəticələri
58. Vətən müharibəsində qazanılan qələbənin regional və beynəlxalq əhəmiyyəti
59. Azərbaycan – Ermənistan – Rusiya üçtərəfli (2020-ci il 10 noyabr) və 2021-ci il 11 yanvar tarixli Moskva bəyanatları
60. Lokal xarakterli antiterror tədbirləri, nəticələri və ona digər dövlətlərin münasibəti

# TÖVSİYƏ OLUNAN ƏDƏBİYYAT:

## Azərbaycan dilində


1. Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Konstitusiya aktı. Bakı, 1991.
2. Azərbaycanlıların soyqırımı haqqında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı. "Azərbaycan" qəzeti, 27 mart 1998-ci il.
3. Abıtalıbov R. Azərbaycan-Fransa əməkdaşlığı yolları Azərbaycanın beynəlxalq çoxtərəfli əlaqələrində Bakının rolu. Bakı, 1997.
4. Abbasbəyli A. Nəcəfov E. Beynəlxalq münasibətlər nəzəriyyəsi. Bakı: Mürtəcim, 2007, 208 s.
5. Abbasbəyli A. Müasir dünyanın siyasi mənzərəsi. Bakı, 2008, 273 s.
6. Abbasbəyli A. Dünya siyasəti (XX əsrin ikinci yarısı - XXI əsrin əvyəliəri). Bakı, 2011
7. Azərbaycan–NATO: tərəfdaşlıqdan başlanan yol (1994-2009). / Heydər Əliyev İrsini Araşdırma Mərkəzi. Bakı: Apostrof, 2009, 342 s.
8. Azərbaycan ilə NATO arasmda əməkdaşlığa dair imzalanmış sazişlər. bax: Sülh və təhlükəsizlik naminə. Bakı. 2000. səh.208-214.
9. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1996.
10. Azərbaycan və Avropa Şurası /Tərtibçi S.V.Yusifova. Bakı: Avrasiya Press,2009, 240 s.
11. Əhmədov E. Azərbaycanın xarici siyasəti: beynəlxalq təhlükəsizlik və əməkdaşlıq institutları ilə münasibətlər. Bakı, Letterpress, 2013, 452 s.
12. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011). Bakı, Letterpress, 2012, 912 s.
13. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, “Tuna” nəşriyyatı, 1998, 138 s.
14. Əliyev Ə. Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri. Bakı,2007,488 s.
15. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti: Dərslik. Bakı: Azərbaycan, 2005.- 752 s.
16. Eyvazov C.Ə. Strateji tədqiqatlara giriş. Bakı: Elm və təhsil, 2017
17. İbayev V. Ermənistan-Azərbaycan münaqişəsi beynəlxalq hüququn JUS-COGENS prinsipləri prizmasında. Bakı, 1999, -128 s.
18. İbayev V. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi insan hüquqları kontekstində (tətbiq olunan hüquq və məsuliyyət məsələləri). Bakı, 2001.

19. Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003) 2 hissədə; I hissə.-Bakı, 2015.- 648 s.
20. Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003) 2 hissədə; II hissə. Bakı: 2015, 664 s.
21. Qasımlı M. Heydər Əliyev - istiqlala gedən yol (1969-1987-ci illər).- Bakı, 2006.- 608 s.
22. Məmmədov H. Dünya siyasəti və beynəlxalq münasibətlər. Dərslik. Bakı, Çinar- Çap, 2010, 564 s.
23. Məmmədov H. Azərbaycan Respublikasının müasir beynəlxalq münasibətlər sistemində yeri və rolu. Bakı: Aypara-3, 2009, 328 s.
24. Məmmədov H. Dünya siyasəti və beynəlxalq münasibətlər. Bakı: Bakı Universiteti, 2012, 372 s.
25. Məmmədov H. Heydər Əliyevin siyasi irsinin politoloji aspektləri. Bakı MSA, 2013,456
26. Məmmədov N. "Geosiyasətə giriş. İki cilddə. Cild I: Geosiyasətin nəzəri əsasları. - Bakı, Azərbaycan nəşriyyatı, 2011. - 576 s.
27. Nəsirov E. Azərbaycan nefi və beynəlxalq müqavilələr (1991-1999-cu illər) Bakı, Respublika Xatirə Kitab Evi, 1999, 104 s.
28. Nəsirov E. Azərbaycan-ABŞ münasibıtləri (1991-1999-ci illər) Bakı, Qanun, 1998, 136 s.
29. Vəliyev A. Azərbaycan-Avropa Şurası: demokratiya və insan hüquqları sahəsində əməkdaşlıq. Bakı: 2006, 236 s.
30. Yusifzadə X. "Azərbaycanın neft və qaz sənayesi tarixi. ARDNŞ-in perspektivi". Bakı, 2000. s.56

**Türk dilində**

31. Aydin Mustafa, Kafkasya ve Orta Asya'yla İlişkiler, Baskın Oran (ed), Türk Dış Politikası Cilt II, İstanbul: İletişim Yayınları, 2003
32. Demir Ali Faik, Türk Dış Politikası Perspektifinden Güney Kafkasya, Ankara: Bağlam Yayıncılık, 2003.
33. Ertuğrul Ahmet Tonak. Küreselleşme, Emperyalizm, Yerelcilik, İşçi Sınıfı. 2000, s 279
34. Haluk Gerger. Türk Dış Politikasının Ekonomi Politiği - ("Soğuk Savaş"Tan "Yeni Dünya Düzeni"Ne). 2012, s 320.
35. Gül Nazmi, EKİCİ Gökçen, Ortak Tehdit Algılamaları ve Stratejik İttifaklığa Doğru İlerleyen İran-Ermenistan İlişkileri, Stratejik Analiz, Cilt 2, Sayı 22, 2002.

36. Mert Okan, Türkiye'nin Kafkasya Politikası ve Gürcistan, İstanbul: IQ Kültür Sanat Yayınları, 2004.
37. Yilmaz Muzaffer Ercan, Soğuk Savaş Sonrası Dönemde Sınır İçi Etnik Çatışmalar, Uluslararası Hukuk ve Politika, Cilt.2, No.6, 2006.

**Rus dilində**

38. Алиев Н.Г. Армянская экспансия и международные договоры по Южному Кавказу в XIX-XX вв. Издание второе, дополненное. – Киев: Издательский дом Дмитрия Бураго, 2021. – 184 с.
39. Алиев Н.Г. Международное право и нагорно-карабахский кофликт. – Москва: Вече, 2013. – 174 с., илл.
40. Алиев Н.Г. Этно-территориальные конфликты: мифы и реальность. – Баку: Азернешр, 2019. – 90 с.
41. Арбатов А. Дипломатия силы в XXI веке // Свободная мысль - XXI. 2004. - № 4. - С. 57-69.
42. Арешидзе Л.Г. Международные отношения в Восточной Азии.
43. Угрозы и надежды. - М.: Международные отношения, 2007. - 296 с.
44. Бажанов Е.П. Актуальные проблемы международных отношений. Избранные труды в 3-х томах. Т. 1. - М.: Научная книга, 2001. - 464 с.; Т. 2. - М.: Научная книга, 2002. - 480 с.; Т. 3. - М.: Научная книга, 2003. - 480 с.
45. Бжезинский 3. Великая шахматная доска. - М.: Международные отношения, 2005. - 256 с.
46. Быков О.Н. Международные отношения. Трансформация глобальной структуры. - М.: Наука, 2003. - 573 с.
47. Валлерстайн И. Анализ мировых систем и ситуация в современном мире: пер. с англ. - СПб.: Университетская книга, 2001. -416 с.
48. Верезгова И.В. Современный терроризм как международный фактор // Вестник МГУ. Сер. 12. Политические науки. - 2007. - № 6. - С. 32-41.
49. Галенович Ю.М. Россия - Китай - Америка: от соперничества к гармонии интересов? - М.: Русская панорама, 2006. - 575 с.
50. Гидденс Э. Ускользающий мир: как глобализация меняет нашу жизнь: пер.с англ. М.: Весь мир, 2004. - 120 с.
51. Зубков А.И. Геополитика и проблемы национальной безопасности России: курс лекций. - СПб.: ЮЦП, 2004. - 199 с.

52. Кашлев Ю., Галумов Э. Информация и PR в международных отношениях. М.: Известия, 2003. - 432 с.
53. Киссинджер Г. Нужна ли Америке внешняя политика? - М.: Ладомир, 2002.-352 с.
54. Лебедева М.М. Мировая политика: учебник для вузов. - 2-е изд. - М.: Аспект пресс, 2006. - 365 с.
55. Лукин В.Н. Глобализация и международный терроризм. Москва: «Наука», 2006
56. Маргелов М.В. Нефтяной фактор мировой политики // США - Канада: экономика, политика, культура. - 2004. - № 8. - С. 68-78.
57. Мировая политика и международные отношения: учебное пособие / под ред. С.А. Ланцова, В.А. Ачкасова. - СПб.: Питер, 2006 - 448 с.
58. Мухаев Р.Т. Геополитика: учебник. - М.: ЮНИТИ-ДАНА, 2007. - 623 с.
59. Панарин И.Н. Информационная война и геополитика. - М.: Поколение,2006. - 560 с.
60. Мировая политика и международные отношения: ключевые слова и понятия / под общ. ред. М.М. Лебедевой, С.В. Устинкина. - М.: Н. Новгород, 2000. 207 с.
61. Торкунов А. Мировые реалии начала XXI века и внешняя политика России // Аналитические записки НКСМИ. - 2004. - № 1. - С. 3-40.
62. Уткин А.И. Большая восьмѐрка: цена вхождения. - М.: Алгоритм, 2006. 480 с.
63. Уткин А.И. Глобализация: процесс, осмысление. Москва: «Логос» 2002.
64. Уткин А.И. Мировой порядок XXI века. Москва: «Алгоритм», 2001
65. Фукуяма Ф. Великий разрыв. - М.: АСТ, 2008. - 480 с.
66. Фукуяма Ф. Конец истории и последний человек. - М.: АСТ, 2005. 592 с.
67. Фукуяма Ф. Наше постчеловеческое будущее. - М.: АСТ, 2008. - 352 с.
68. Хантингтон С. Кто мы? Вызовы американской национальной идентичности. М.: АСТ, 2004. - 636 с.
69. Хантингтон С. Политический порядок в меняющихся обществах. - М.: Прогресс.-Традиция, 2004. - 480 с.
70. Хантингтон С. Столкновение цивилизаций. - М.: АСТ, 2007. - 576 с.

71. Бажанов, Н.Е. Международные отношения в XXI веке. International Relations in the XXI Century / Е.П.. М.: Восток-Запад, 2011.с.44
72. Дергачев В.А. Геополитика. Учебник для вузов. М.:ЮНИТИ-ДАНА, 2004. 526 с
73. Алиев Ильхам. Каспийская нефть Азербайджана. - Москва, "Известия", 2003, с. 712.
74. Чернявский С. И. Азербайджан: выбор курса. - Москва. 2004.
75. Чернявский С. И. Новый путь Азербайджана. - Москва, 2002.
76. Чернявский С.И. Внешняя политика Азербайджанской Республики· (1998-2003). - Баку, 2003.
77. Шукюров И. Дипломатия мира. (Об итогах визитов Президента Азербайджанской Республики Гейдара Алиева в зарубежные страны. 1993-1997). - Баку, 1997.
78. Шукюров И., Ибрагимов Н. Гейдар Алиев открыт миру Азербайджан. - Баку, 1994, с. 173.
79. Эйвазов Д. Безопасность Кавказа и стабильность развития Азербайджанской Республики. Баку, 2004, 352 с.
80. Эйвазов Д. Державы и регионы: системный анализ безопасности постсоветского пространства. Стокгольм: CA&CC Press, 2015, 319 p.
81. Эйвазов Д. НАТО и военно-политические аспекты безопасности Азербайджана. - "Центральная Азия и Кавказ", 2001, № 2 (14).

## İngilis dilində

82. Altstadt A. The Azerbaijani Turks; Power and identity under Russian Rule//Hoover Institution Press. 1992. 334 p
83. Ambrosio Thomas, Congressional Perceptions of Ethnic Cleansing: Reactions to the Nagorno-Karabakh War and the Influence of Ethnic Interest Groups, The Review of International Affairs, Vol.2, No.1, 2002.
84. Baev K. Pavel, Russia'a Policies in Southern Caucasus and the Caspian Area, European Security, Vol.10, No.2, 2001.
85. Buzan B. People, States and Fear: An agenda for İnternational Security Studies in Post-Cold War Era. London, 1983.308 p.
86. Burchill S. et al. Theories of International Relations. Third edition. Palgrave Macmillan, 2005
87. CSCE. Budapest Document 1994. Towards a Genuine partnership in a new era. Budapest, 1994, 35 p.

88. CSCE. First Additional meeting of the Council. Helsinki, 24 March, 1992, CSO. Journal, N 3, p. 1-3.
89. Fall Sir Brian, Conflict in the South Caucasus‖, Asian Affairs, Vol.37, No.2, 2006.
90. Goltz N. Azerbaijan Diary: A Rogue Reportes Adventures in an Oil-rich, War-torn, Post-Soviet Republic.N.-Y., 1998.
91. Kenneth N. Waltz. Theory of International Politics. AddisonWesley Publishing Company. 1979, p 492
92. John Baylis, Steve Smith, Patricia Owens. The Globalization of World Politics: An Introduction to International Relations. Oxford: Oxford University Press. 2011, p 636
93. Henry Kissinger. Diplomacy. New York: Simon and Schuster. 1994.
94. OSCE. Handbook. Vienna, Published by the Secretariat of the Organization for Security and Co-operation in Europe, 1999. - 197 p.
95. OSCE. Istanbul Summit Declaration. Istanbul, 1999, 15 p.
96. OSCE. Lisbon Document 1996. Lisbon, 1996, 7 p.
97. PACE. REC. 16/902/005. The conflict over the Nagorno-Karabakh region dealt with by the OSCE Minsk Conference.
98. PACE. RES. 14/162/005. The conflict over the Nagorno-Karabakh region dealt with by the OSCE Minsk Conference.
99. Paul Kennedy. The Rise and Fall of Great Powers; Economic Change and Military Conflict from 1500 to 2000. New York: Random House. 1989, p 340
100. Robert Olson. Turkey-Iran Relations, 1979-2004: Revolution, Ideology, War, Coups and Geopolitics. 2005, p 256
101. Swietochowski T. Russia and Azerbaijan: A borderland in transition. N.Y., 1995.
102. Swietochowski T. Russian Azerbaijan 1905-1920. Cambridge, 1985.
103. Vaserman Arie, Rami Ginat, National, Territorial or Religious Conflict? The Case of Nagorno-Karabakh, Studies in Conflict and Terrorism, Vol.17, 1994.


## Dövri mətbuat
## Azərbaycan dlilində


104. “Azərbaycan” qəzeti, 1992-2024-cü illər.

105. “Xalq Qəzeti” qəzeti, 1991-2024-cü illər.

## Rus dilində

106. Дипломатический вестник МИД Российской Федерации. Москва, 1992-2024.
107. Евразийский вестник. Москва, 2000-2024.
108. Компас. Москва, 2002-2017.
109. Международная жизнь. Москва, 1992-2024.
110. МЭИМО. Москва, 1992-2024.
111. Полис. Москва, 1997-2024.
112. Свободная мысль. Москва, 1995-2024.
113. США: экономика, политика, идеология. Москва, 1998-2024.
114. Центральная Азия и Кавказ. Щвеция, 2000-2005.

## İngilis dilində

115. Foreign Affairs, (http:www.foreignaffnirs.org.)
116. International Politic.(http:www.germany.org.ru.; http:www. internationalepolitik.de.)
117. The Economist, (http:www.economist.com.)
118. World Politics, (http:muse.jhu.edujournalsworld_poli-tics.)

## İnternet resursları
## Azərbaycan dilində

119. http://www.president.az
120. http://www.cabmin.gov.az
121. http://www.meclis.gov.az
122. http://www.mfa.gov.az
123. http://www.azstat.org
124. http://www.preslib.az
125. http://www foreignpol.preslib.az/foto
126. http://www.justiceforkhojaly.com
127. http://www.khojaly.preslib.az
128. http://www.elibrary.az
129. http://www.anl.az
130. http://www.anl.az/xocali.php
131. http://www.azertag.com

132. http://www. anl.az/xocali
133. http://www.genocide.preslib.az/ru
134. http://www. khojaly.preslib.az
135. http://www.31mart.wordpress.com

**Rus dilində**

136. http:www.ca-c.org
137. http:www.carnegie.ru
138. http:www.c-asia.org
139. http:www.cast.ru
140. http:www.ccntrasia.ru
141. http:www.cis.by
142. http:www.coe.int
143. http:www.cudenver.edu
144. http:www.e-journal.ru
145. http:www.eurasianet.org
146. http:www.europa.eu.int
147. http:www.iips.org.
148. http:www.imo.hrindoc
149. http:www.ipmb.ru
150. http:www.jpri.org.
151. http:www.kavkaz.com
152. http:www.materik.ru
153. http:www.nato.int
154. http:www.newsweekly.ru
155. http:www.organic.com
156. http:www.pirsenter.org
157. http:www.poli.vub.ac.be
158. http:www.rami.ru
159. http:www.un.org
160. http:www.unpan.org
161. http:www.usacc.org
162. http:www.wfs.org
163. http:www.worldcitizen.org
164. http:www.expert.ru
165. http:www.geopolitica.ru

**166.** http:www.kavkaz.com
**167.** http:www.viib.ac.be